# YAP-ın qurultayı cəmiyyətdə yaranmış siyasi vəhdəti nümayiş etdirdi



***Yeni Azərbaycan Partiyasının VII qurultayında 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərar qəbul edildi. Bu partiyaların iqtidar partiyasına qoşulmasının səbəbi, məhz ideoloji prioritetlərin vəhdət, ortaqlıq təşkil etməsindədir. Azərbaycanda təsis edilmiş bir sıra siyasi partiyalar öz siyasi proqramlarında başlıca məqsəd kimi ölkənin ərazi bütövlüyünün bərpasını və azərbaycançılıq məfkurəsi əsasında müstəqil dövlətçiliyin möhkəmləndirilməsi məramını hədəf seçmişdi. Zaman onları ortaq mövqeyə gətirdi.***

44 günlük Vətən müharibəsində qazanılmış qələbə, həmçinin Azərbaycan – Türkiyə münasibətlərinin yüksək səviyyədə formalaşması həmin partiyaların siyasi proqramlarında göstərilmiş əsas məqsədə çatmalarına səbəb olmuşdu. Ona görə də həmin partiyalar YAP-a birləşmək haqqında qərar qəbul etmişdilər. Digər tərəfdən, bu proses bir daha sübut edir ki, ölkədəki dialoq mühiti siyasətdə yeni tərəqqi məzmunlu konsolidasiyalara səbəb olur. Bu, eyni zamanda, ölkəmizdə dialoq mühitinin dərinləşməsinə və demokratik ənənələrin şaxələnməsinə xidmət edir. Əlbəttə ki, siyasi rəqabətin əsas aləti kimi partiyaların güclənməsi vətəndaşların maraqlarının müdafiə olunmasına da yeni imkanlar yaradır.

Siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmaq istəyi YAP-ın, sözün əsl mənasında, xalq partiyası olduğunu sübut edir. Çünki YAP ümumxalq partiyası olaraq, ölkəmizdə milli həmrəyliyin yeni inkişaf mərhələsinin təcəssümünə çevrilib. Bu cür tendensiyalar, eyni zamanda, iqtidara qarşı olan müsbət ictimai rəyin artmasından xəbər verir. Məhz 6 siyasi partiyanın YAP-a qoşulması faktı Azərbaycanda dövlət və milli maraqlar naminə müxtəlif siyasi qüvvələrin inteqrasiya nümunəsidir. Bu, həmçinin milli həmrəyliyə və sağlam dialoqa xidmət edən siyasi islahatların nəticəsi, ölkənin siyasi həyatında yeni demokratik məzmunlu presedentdir.

Ümumiyyətlə, məhdud resurslara malik olan partiyaların kifayət qədər qüvvətli siyasi partiyaya qoşulması ölkədə yeni siyasi mənzərənin yaranmasına səbəb olmaqla yanaşı, həmin partiyanın üzvləri üçün də yeni imkanlar yaradır. Bununla da partiya üzvlərinin siyasi maraqlarının təminatı prosesi daha səmərəli təşkil olunur, eləcə də, siyasi qüvvələrin inteqrasiyası ölkənin siyasi partiyalar sisteminin daha effektiv fəaliyyətinə xidmət edir. Ölkədə siyasi partiyaların ləğv olunmadan sayının azalması isə siyasi proseslərə təsir etmək iqtidarında olan partiyalar üçün daha əlverişli şərait yaradılmasına xidmət edir.

Siyasi partiyalar sistemində müşahidə olunan tendensiyaların YAP-ın gücündən və elektoratın potensialından da xəbər verir. Nisbətən zəif qüvvələrin daha güclü qüvvəyə qoşulmaq istəyi təbii və başadüşüləndir. Bu mənada, 6 siyasi partiyanın YAP-a qoşulması iqtidar partiyasına olan etibar və inamdan irəli gəlir.

Prezident İlham Əliyevin “Biz birlikdə güclüyük” – çağırışı dövlət siyasətinin əsas fəlsəfəsinə çevrilərək siyasi münasibətlərdə də öz əksini tapır. Dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən milli həmrəylik siyasəti, həmçinin Vətən müharibəsində qazanılmış qələbə ölkədə milli birlik yaradıb. Bu gün aydın şəkildə görünür ki, Azərbaycanda milli maraqların üstünlük təşkil etdiyi dövr yaşanır. Ölkədə aparılan iqtidar-müxalifət dialoqu nəticəsində əksər siyasi partiyaların həm iqtidarla, həm də öz aralarında sağlam münasibətləri formalaşıb, ümumdövlət məsələlərində vahid mövqe yaranıb.

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev partiyanın VII qurultayındakı çıxışında bildirdiyi kimi, məhz bu birliyin nəticəsində Qarabağ uğrunda savaşda, Ermənistandan fərqli olaraq Azərbaycana heç kim kömək etməsə də bia öz gücümüzə qalib gəldik. Biz hər şeyi öz hesabımıza əldə etmişik. Ermənistan kimi heç vaxt gedib qapı-qapı gəzməmişik, özümüzü alçaltmamışıq, yalvarmamışıq, yardım heç kimdən istəməmişik: “İqtisadi müstəqillik həm hazırlıq baxımından, həm siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərt idi. Buna da nail olduq. Kimsə bizə kömək edib? Yox. Borca girmişik? Bu, Vətən müharibəsi üçün iqtisadi, siyasi, daxili sabitlik sahələrində hazırlıq. İndi baxın, Azərbaycana nə qədər xaricdən investisiyalar qoyulur. Bunun əsas amili daxili sabitlikdir”.

YAP-ın növbəti qurultayı ötən dövrdə ölkəmizdə yaranmış milli birliyin və mənəvi-siyasi həmrəyliyin təntənəsinə çevrilməklə yanaşı, yeni platformada bu birliyin daha da möhkəmləndirilməsinə geniş meydan açdı.

***Sədaqət VƏLİYEVA,***
***YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı***

Xalq qəzeti 2021.- 7 mart.- S.2.